**Sevda Məmməd qızı Mikayılova**

**Gülsabah Vahid qızı Rəhimova**

**UOT 338.43; JEL: Q10; Q19.**

# Ərzaq təhlükəsizliyinin təmin edilməsində kənd təsərrüfatı məhsullarının dövlət tədarükü sisteminin rolu

**_Xülasə_**

*Məqalədə ərzaq təhlükəsizliyinin təmin edilməsində kənd təsərrüfatı məhsullarının dövlət tədarükü sisteminin rolu araşdırılmışdır. Bu istiqamətdə kənd təsərrüfatı məhsullarının dövlət tədarükünün həyata keçirilməsi yolları nəzərdən keçirilmiş, dövlət ehtiyacları üçün kənd təsərrüfatı məhsullarının tədarükündə mövcud təşkilati və iqtisadi mexanizmlərinin təkmilləşdirilməsinin əhəmiyyəti açıqlanmışdır. Kənd təsərrüfatı məhsullarının dövlət tədarükü sisteminin səmərəliliyi dövlət satınalma siyasətinin həyata keçirilməsinin əsas hədəflərindən biri olduğu nəzərə alınaraq, bu hədəfə çatmaq üçün prioritet olaraq həll edilməli olan məsələlər göstərilmişdir. Həmçinin, ərzaq təhlükəsizliyi baxımından kənd təsərrüfatı məhsullarının tədarükü sisteminin səmərəliliyinin artırılması üçün bu sahədə dövlət-biznes arasında tərəfdaşlığın inkişafına dair təkliflər irəli sürülmüşdür.*

***Açar sözlər:*** *ərzaq təhlükəsizliyi, kənd təsərrüfatı məhsulları, dövlət tədarükü, tənzimləmə, taxıl, buğda*



## Giriş

Yüksək yaşayış şəraitinə nail olunması, ölkə vətəndaşlarının həyat keyfiyyətinin yaxşılaşdırılması və ərzaq məhsullarına olan tələbatının ödənilməsi dövlətin iqtisadi təhlükəsizliyinin təmin edilməsinin və milli strateji prioritetlərinin həyata keçirilməsinin əsas vəzifələrindəndir. Ərzaq təhlükəsizliyi insan həyatına müxtəlif aspektlərinə təsir göstərir. Ölkədə lazımi ərzaq ehtiyatları olmadığı təqdirdə cəmiyyətdə sosial-iqtisadi qeyri-sabitlik yarana bilər. Ərzaq təhlükəsizliyinin təmin edilməsi cəmiyyətin sabit və davamlı inkişafına kömək edir. Ərzaq təhlükəsizliyinin təmin edilməsi sayəsində cəmiyyətdə əlverişli sosial mühit yaratmaq mümkündür. Geosiyasi və xarici iqtisadi təhlükəsizlik ölkədəki ərzaq təhlükəsizliyi probleminin həllindən çox asılıdır. Ərzaq təhlükəsizliyi probleminin həllində kənd təsərrüfatı məhsullarının dövlət tədarükü sisteminin rolunu xüsusilə qeyd etmək lazımdır. Çünki, dövlət tədarükü sistemi əhalinin lazımi miqdarda və keyfiyyətdə ərzaq məhsulları ilə təmin edilməsində əhəmiyyətli rol oynayır. Bütün bu cəhətlər məqalənin mövzusunun aktuallığını göstərir.

## Ərzaq təhlükəsizliyinin təmin edilməsində kənd təsərrüfatı məhsullarının dövlət tədarükü sisteminin rolunun qiymətləndirilməsi

Azərbaycanda ərzaq siyasəti artıq formalaşıb və bu siyasət məhsulların keyfiyyətinin yaxşılaşdırılmasına, çeşidlərinin genişləndirilməsinə yönəlib. Ərzaq təhlükəsizliyi minimum yaşayış standartlarını təmin etməyi, minimum ərzaq təchizatı səviyyəsini qorumağı hədəfləyir. Bütün dünyada olduğu kimi, ölkəmizdə də ərzaq təhlükəsizliyi məsələsinin həlli prioritet məsələlərdən biridir. Ərzaq təhlükəsizliyi ölkənin milli təhlükəsizliyinin ayrılmaz hissəsidir. Çünki heç bir dövlət, ilk növbədə, əhalinin yüksək keyfiyyətli qidaya olan tələbatını ödəmədən iqtisadi təhlükəsizliyə nail ola bilməz. Ərzaq təhlükəsizliyi həm qida məhsulları ilə özünü təmin etməklə, həm də çatışmayan qida növlərini idxal etməklə əldə edilir. Ərzaq

*©Sevda Məmməd qızı Mikayılova i.e.d., AMEA, İqtisadiyyat İnstitutu, baş elmi işçi. Gülsabah Vahid qızı Rəhimova ADAU dissertant. E-mail: rgulsabah@mail.ru*
*©AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

təhlükəsizliyinin təmin edilməsində əsas rolu bu istiqamətdə yönəldilmiş tədbirlər oynayır: ölkə iqtisadiyyatının aqrar-ərzaq sektorunun davamlı inkişafı və işləməsi; əhalinin real gəlirlərinin artmasını təmin etmək, həyat səviyyələrini artırmaq; daxili ərzaq bazarını, yerli istehsalçıların iqtisadi maraqlarını haqsız rəqabətdən qorumaq və kənd təsərrüfatı məhsullarının idxal və ixarcının effektiv tənzimlənməsi. Ölkə əhalisini ərzaq məhsulları ilə təmin etmək kənd təsərrüfatı sektorunun inkişafının strateji hədəflərindən biridir. Kənd təsərrüfatının və ərzaq bazarının inkişaf səviyyəsi hər zaman ölkədəki iqtisadi və ictimai-siyasi sabitliyin, iqtisadi və ərzaq təhlükəsizliyinin müəyyənedici amili olmuşdur və olmaqda davam edir. Bu səbəbdən iqtisadiyyatın bu sektorunun dinamik inkişafı gələcək üçün dövlətin sosial-iqtisadi siyasətinin əsas prioritetlərindən birinə çevrilir. Ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsi probleminin həlli xeyli dərəcədə kənd təsərrüfatı məhsullarının dövlət tədarükü sisteminin fəaliyyətindən asılıdır. Kənd təsərrüfatı məhsullarının dövlət tədarükü sistemi dinamikdir, burada elementlər arasındakı qarşılıqlı təsir prosesləri inkişaf edir. Bu, həmin sistemin idarə olunması üçün əlverişli təşkilati-iqtisadi mexanizm tələb edir.

Dövlət tədarükü sistemi dövlət ehtiyaclarını ödəmək problemini həll etməklə yanaşı, dövlətin iqtisadi siyasətinin vacib alətilərindən biri kimi biri kimi çıxış edir. Kənd təsərrüfatı məhsullarının dövlət tədarükü sistemi həm milli iqtisadiyyatın davamlı və dinamik inkişafı, həm də beynəlxalq iqtisadi əməkdaşlığın genişlənməsi və möhkəmlənməsi üçün zəmin yaradır. Hər hansı bir ölkədə tədarük sektoru həm dövlət, həm də yerli büdcələrin əhəmiyyətli bir hissəsini təşkil edərək ən vacib rollardan birini oynayır. Səmərəli şəkildə qurulmuş və işləyən bir dövlət tədarükü sistemi kiçik və orta sahibkarlığın stimullaşdırılması və inkişafı baxımından fayda gətirir. Dövlət ehtiyacları üçün kənd təsərrüfatı məhsullarının tədarükü və satınalmalarının təşkili sosial ehtiyacların ödənilməsində dövlətin ən vacib funksiyalarından biridir. Müasir kənd təsərrüfatı məhsullarının dövlət tədarükü sistemi həm də iqtisadiyyatın dövlət tənzimlənməsi funksiyalarını yerinə yetirir. Dövlət tədarükü sistemi dövlət tərəfindən mərkəzləşdirilmiş nəzarətin artırılması, xərclərin artımının qarşısını alinması, dövlət büdcəsi xərclərinin azaldılmasına, bazar münasibətlərinə uyğun olaraq maddi axınların idarə edilməsinə yönəlmiş müxtəlif funksiyaları yerinə yetirir. Kənd təsərrüfatı məhsullarının dövlət tədarükü müxtəlif yollarla həyata keçirilə bilir. Həmin yollardan ən əsasları aşağıdakılardır:

- tenderlər;
- bir neçə təchizatçı ilə danışıqlara əsaslanan rəqabətli təklif;
- müntəzəm ticarət şəbəkəsində alış-veriş (birbaşa alış);
- tək mənbədən satınalmalar [4, s.140].

Əksər dövlət tədarükləri açıq tender üsulu ilə rəqabət əsasında həyata keçirilir. Dövlət tədarükləri üçün tender üsulu, özəl şirkətlərin dövlət sifarişlərinə çatması üçün bərabər şərait yaradır və qiymətləri əhəmiyyətli dərəcədə endirə və şəffaflığı təmin edə bilər. Dövlət tədarükü ölkənin ehtiyaclarına əsaslanan sifariş əsasında da həyata keçirilir. Dövlət sifarişinin icrası prosesinin son mərhələsi dövlət satınalmalarıdır, yəni dövlət ehtiyacları üçün malların, işlərin, xidmətlərin alınmasıdır. Dövlət ehtiyacları üçün kənd təsərrüfatı məhsullarının alınması prosesində təchizatçı seçmək üçün istifadə olunan mexanizm bütün tədarük prosesinin səmərəliliyini müəyyən edən əsas amildir. Bu sahədə səmərəli mexanizmin istifadəsi vəsaitlərə qənaət etməklə yanaşı, digər müsbət təsirlərə də səbəb ola bilər. Ümumiyyətlə, kənd təsərrüfatı məhsullarının alqı-satqısı tədarük təşkilatları, emal müəssisələri, müxtəlif fiziki və hüquqi şəxslər tərəfindən müqavilə əsasında, razılaşdırılmış qiymətlərlə həyata keçirilir.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Qeyd etmək lazımdır ki, kənd təsərrüfatının inkişafında, əhali gəlirlərinin artımında, məşğulluğun və ərzaq təhlükəsizliyinin təmin edilməsində qiymət tənzimlənməsinin xüsusi rolu vardır. Odur ki, aqrar sektorda qiymətlərin tənzimlənməsinə xüsusi bir yanaşma və metod tətbiq etmək lazımdır. Burada aqrar sektorun istifadə etdiyi maddi-texniki ehtiyatların qiymətlərinin sektorlararası nisbətinə və nəticədə sabit qiymət səviyyəsinə diqqət yetirmək lazımdır. Bütövlükdə, dövlət kənd təsərrüfatı istehsalçılarına subsidiya və yardım göstərməklə həmin sahə məhsullarının qiymətlərini nisbətən sabit saxlaya bilir [3, s.236].

**Kənd təsərrüfatı məhsullarının dövlət tədarükü mexanizmi**

Dövlət ehtiyacları üçün kənd təsərrüfatı məhsullarının tədarükündə mövcud təşkilati və iqtisadi münasibətlər sisteminin tənzimlənməsi bu proses iştirakçılarının mənafelərindəki tarazlığın pozulmasının qarşısının alınmasına kömək edir. Nəticədə həm kənd təsərrüfatı məhsullarının satışı ilə, həm də ərzaq fondlarının formalaşması ilə bağlı problemlər aradan qaldırıla bilir. Bundan əlavə, ərzaq bazarında artan rəqabət şəraitində məhsul idxalından asılılıq azalar. Kənd təsərrüfatı məhsullarının tədarükü mexanizmində təşkilati və iqtisadi münasibətlər sisteminin tənzimlənməsi üçün həm sahədə istehsalın, həm də ayrı-ayrı bölgələrin inkişafının iqtisadi və sosial xüsusiyyətləri nəzərə alınmaqla müvafiq nəzəri-metodoloji dəstək tələb olunur. Bazar münasibətləri şəraitində ölkəmizdə kənd təsərrüfatı məhsullarının dövlət tədarükü sahəsində münasibətlərin tənzimlənməsində 27 dekabr 2001-ci ildə qəbul edilmiş "Dövlət satınalmaları haqqında" Qanun və 14 dekabr 2018-ci ildə qəbul edilmiş "Aqrar tədarük və təchizat" Açıq Səhmdar Cəmiyyətinin yaradılması haqqında Fərman əhəmiyyətli rol oynamışdır [1,2]. Qeyd edilən bu və ya digər qanun və fərmanlar kənd təsərrüfatı məhsulları istehsal etməyən müəyyən ərazilərin, habelə dövlət büdcəsində olan müxtəlif xüsusi istehlakçıların ehtiyaclarının ödəməsinin və ərzaq ehtiyatlarının yaradılmasının təmin edilməsi baxımından əhəmiyyətlidir. Kənd təsərrüfatının məhsullarının dövlət tədarükündə əsas yeri taxıl və taxıl məhsulları tutur. Çünki, bu məhsullar ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından əsas strateji məhsullardır. Ölkəmizdə ərzaq təhlükəsizliyini təmin etmək üçün əsas məqsədlərdən biri taxıl, xüsusən də buğda istehsalını artırmaqdır. Taxıl və onun emalı məhsulları əhalinin həyatının əsasını təşkil edir. Taxılçılıq həm də yem bazası kimi heyvandarlığın inkişafında mühüm rol oynayır. Bu səbəbdən taxıl istehsalı həm ərzaq, həm də yem ehtiyatlarının formalaşdırılması baxımından mühüm əhəmiyyətə malikdir. Dövlət Taxıl fonduna tədarük ölkədə buğda ehtiyatlarının formalaşmasında mühüm rol oynayır. Aşağıdakı cədvəl vasitəsilə ölkəmizdə istehsal və idxal olunan buğda ehtiyatlarının həcmini təhlil edək.



**Cədvəl 1.**

**Ölkə üzrə buğda ehtiyatlarınnı həcmi (ton)**

| | 2010 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|
| **İlin əvvəlinə qalıq** | 901740 | 856804 | 875248 | 1025 631 | 829824 | 706931 |
| **İstehsal** | 1272340 | 1639830 | 1799859 | 1769 574 | 1991683 | 2114139 |
| **İdxal** | 1330017 | 1353072 | 1599599 | 1274 434 | 1080906 | 1584998 |
| **Ehtiyatların cəmi** | **3504 097** | **3849706** | **4274706** | **4069 639** | **3902413** | **4406068** |

Mənbə: https://www.stat.gov.az/

Cədvələ diqqət yetirsək görərik ki, buğda ehtiyatlarının həcmində yerli istehsal üstünlük təşkil edir. Belə ki, 2019-cu ildə ölkənin buğda ehtiyatları 4406068 ton təşkil etmişdir ki, bunun da 2114139 tonu və yaxud 48%-i yerli istehsalın, 36%-i idxalın hesabına düşür. İlin əvvəlinə qalıq 16% təşkil edir. 2018-ci ildə bu rəqəmlər uyğun olaraq 51%, 27,7% və 21,3% olmuşdur. Təhlil olunan bütün illər ərzində buğda ehtiyatlarının həcmində əsas yerli istehsal

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

üstünlük təşkil etdiyi halda, 2010-cu ildə isə idxalın həcmi üstünlük təşkil edir. 2019-cu ildə adambaşına düşən buğda ehtiyatının həcmi 441,4 kq, 2018-ci ildə 394,3 kq, 2010-cu ildə isə 389,4 kq təşkil etmişdir. Göründüyü kimi, ölkə üzrə adambaşına düşən buğda ehtiyatlarının həcmi getdikcə artır. Amma aşağıdakı şəkildən də göründüyü kimi, buğda ehtiyatlarının ümumi həcmi qeyri-sabit şəkildə artmışdır. Belə ki, 2019-cu ildə buğda ehtiyatlarının həcmi 2010-cu illə müqayisədə 25,7%, 2013-cü illə müqayisədə 1,1%, 2015-ci illə müqayisədə 11,5%, 2016-cı illə müqayisədə 3,1%, 2018-ci illə müqayisədə isə 12,9% təşkil etmişdir. Ümumilikdə isə ən çox buğda ehtiyatlarının həcmi 2019-cu ildə olmuşdur.

**Diaqram 1.**

**Azərbaycanda buğda ehtiyatlarının artım dinamikası (ton)**




Mənbə: https://www.stat.gov.az/

Növbəti illərdə buğda ehtiyatlarının həcminin artırılması ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından əsas prioritetlərdəndir. Buğda ehtiyatlarının həcmini artırmaq üçün yerli istehsalçıların stimulldşdırılması dövlətin aqrar iqtisadi siyasətinin əsas istiqamətlərindən biridir. Qeyd edək ki, ölkəmizdə buğda istehsalçılarını stimullaşdırmaq üçün onlara subsidiyalar verilir. Kənd təsərrüfatı məhsullarının dövlət sifarişlərinin həcmində və genişliyində artım kənd təsərrüfatı istehsalçılarını dəstəkləmək və stimullaşdırmaq və sahə quruluşunu tənzimləmək üçün ümumi tələbin artmasında bir amil kimi xidmət edir. Əlavə olaraq, dövlət sifarişləri ilə alınan məhsulların həcminin balanslı bir tənzimlənməsi ilə, müəyyən məhsul növləri üçün qiymətlərə müsbət təsir bilər. Dövlət tədarükünün təşkilati və iqtisadi mexanizmi iqtisadi ehtiyaclar, habelə dövlət ehtiyacları üçün məhsul almaq prinsiplərini müəyyən edən hüquq normaları məcmusu kimi müəyyən edilə bilər. Kənd təsərrüfatı məhsullarının dövlət tədarükü sisteminin səmərəli işləməsi üçün qənaət və ədalətlilik kimi prinsiplərə əsaslanmalıdır.

Kənd təsərrüfatı məhsullarının tədarükünü ərzaq təminatını tənzimləmək və proqramlaşdırmaq üçün bir vasitə kimi istifadə edən dövlət iqtisadi inkişafın davamlılığını təmin etmək üçün özəl sahibkarlığın potensialını da bu prosesə cəlb edir. Bu vəziyyətdə, dövlət tədarükü sisteminin ərzaq təhlükəsizliyinə təsiri prosesində həm stimullaşdırıcı, həm də sinergetik effekt yaranır. Ona görə də kənd təsərrüfatı məhsullarının tədarükü sisteminin inkişafında dövlət-biznes arasında tərəfdaşlığın xüsusi rolu vardır. Bu, ilk növbədə, dövlət tərəfindən büdcə vəsaitlərinə qənaət etmək deməkdir. Ölkənin iqtisadi rifahı böyük ölçüdə kənd təsərrüfatı müəssisələrinin işindən asılı olduğunu nəzərə alsaq, bu sahədə dövlət-biznes



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

əməkdaşlığının qarşılıqlı təsir mexanizmini inkişaf etdirmək vacibdir. Bu, idxal əvəzetmə problemini uğurla həll edəcək və ölkənin ərzaq təhlükəsizliyini təmin edəcəkdir. Dövlət ehtiyacları üçün kənd təsərrüfatı məhsullarının tədarükü sistemi dövlətlə biznes arasında tərəfdaşlığın tənzimlənməsi üçün metod və vasitələr sistemi kimi çıxış edir. Bu sistem qarşılıqlı maraqlara, vəzifələrə, qarşılıqlı fəaliyyətin effektivliyinə və rəqabətli bazar iqtisadiyyatı şəraitində əhalinin ərzaq ehtiyaclarını ödəməyə yönəlmiş sahibkarlıq subyektlərinin dövlət tənzimlənməsi və özünütənzimləməsinin birləşməsinə əsaslanır. Bir tərəfdən dövlət malların alınması (işlərin görülməsi, xidmətlər göstərilməsi) üçün sifariş verir, digər tərəfdən tədarükçülər öz təşəbbüsləri ilə onların tədarükü üçün müqavilə bağlayırlar. Buna görə də, xüsusi təchizatçıların cəlb edilməsi onları dövlət ehtiyacları üçün tədarük etməyə sövq etməklə həyata keçirilir. Azərbaycanda dövlət ehtiyacları üçün tədarükün təşkili ilə bağlı iqtisadi əlaqələrin çoxu regional səviyyədə həyata keçirilir. Ayrı-ayrı bölgələr öz növbəsində dövlət ehtiyaclarının ödənilməsi məqsədilə məhsul satın alma planının yerinə yetirilməsində fərqli rola malik olur.

Ümumiyyətlə, dövlət satınalmaları hər hansı bir ölkə üçün strateji əhəmiyyət daşıyır. Bu proseslər kifayət qədər maliyyə vəsaitləri tələb edir. Azərbaycanda da dövlət ehtiyaclarının ödənilməsi məqsədilə kənd təsərrüfatı məhsullarının tədarükünü təmin etmək üçün dövlət büdcəsindən əhəmiyyətli vəsait ayrılır. Bu onu göstərir ki, hazırda dövlət həmin məhsullarının aktiv alıcısı kimi çıxış edir. Təkcə bir faktı qeyd etsək, bunu daha aydın şəkildə görə bilərik. Belə ki, 2019-cu il ərzində "Aqrar tədarük və təchizat" Açıq Səhmdar Cəmiyyəti tərəfindən dövlət büdcəsindən maliyyələşdirilən 867 müəssisə və təşkilatla satınalma müqaviləsi bağlanmışdır. Həmin müqavilələr əsasında yerli icra hakimiyyəti orqanlarına aid 2014 tədarük məntəqəsinə 57937 ton məhsul çatdırılmışdır [8]. Bütün bunlar dövlət satınalmalarının idarə edilməsi problemlərini aktuallaşdırır. Qeyd etmək lazımdır ki, dövlət satınalmalarının idarə edilməsi sahəsindəki problemlərin həllinə töhfə verə biləcək çoxlu vasitələr mövcuddur. Belə vasitələrə logistikanı, klasterləşməni və idarəetmənin digər inteqrasiya formalarını aid edə bilərik [5, s.133]. Bu formaların tətbiqi də müəyyən maliyyə vəsaitləri tələb edir. Kənd təsərrüfatı məhsullarının dövlət tədarükü sisteminin səmərəliliyinin artırılması iqtisadi artıma və inkişafa, işgüzar aktivliyə, investisiya mühitinə əhəmiyyətli töhfə verir və eyni zamanda iqtisadiyyatı tənzimləmək baxımından əlverişli bir vasitə kimi çıxış edir.



**Nəticə**

Kənd təsərrüfatı məhsullarının dövlət tədarükü sisteminin daim təkmilləşdirilməsi bu sahədə yeni idarəetmə mexanizmlərinin hazırlanması və tətbiqi satınalmaların səmərəliliyinin artırılması baxımından əhəmiyyətlidir. Kənd təsərrüfatı məhsullarının dövlət tədarükü sisteminin səmərəliliyi dövlət satınalma siyasətinin həyata keçirilməsinin əsas hədəflərindəndir. Bu hədəfə çatmaq üçün prioritet olaraq həll edilməli olan vəzifələr kimi kənd təsərrüfatı məhsullarının dövlət tədarükü sisteminin fəaliyyətinin şəffaflığı və açıqlığı səviyyəsinin artırılmasını, kənd təsərrüfatı məhsullarının tədarükü çərçivəsində dövlət qurumlarının hesabatlarının tamlılığı və şəffaflılığının təmin edilməsi üçün tələblərin yaradılmasını, kənd təsərrüfatı və onunla əlaqəli müəssisələr arasında əlaqələrin inkişafını məqsədəuyğun hesab edirik. Kənd təsərrüfatı məhsullarının tədarükü orqanlarının fəaliyyəti barədə məlumatların açıqlığı son nəticədə ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından əhəmiyyətlidir.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

## Ədəbiyyat


1. "Aqrar tədarük və təchizat" Açıq Səhmdar Cəmiyyətinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 14 dekabr 2018-ci il
2. "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanunu. 27 dekabr 2001.
3. İbrahimov İ.H. Aqrar sahənin iqtisadiyyatı (Monoqrafiya). Bakı, 2016, 655 s.
4. Манжуева Э.Д. Международный опыт государственной поддержки закупок сельскохозяйственной продукции. Вестник Бурятского государственного университета 1/2013, с.139-147
5. Мясникова Л.А., Тюрина К.А. Современные инструменты повышения эффективности системы государственных закупок. Вестник Пермского университета, 2016, вып.3(30), с.132-142
6. https://fins.az/aqro/262538/aqrar-subsidiya-2021-ci-il-cedvel/
7. https://www.stat.gov.az/
8. http://att.gov.az/files/reportings/aqrar-tedaruk-ve-techizat-asc-terefinden-2019-cu-ilde-gorulen-islerin-hesabati.pdf
9. http://www.e-qanun.az/framework/631


***Севда Мамед кызы Микаилова***

***Гульсабах Вахид гызы Рагимова***

***Роль государственной системы закупок сельскохозяйственной продукции в обеспечении продовольственной безопасности***

***Резюме***

*В статье обосновывается необходимость обеспечения продовольственной безопасности в стране. Были изучены способы обеспечения продовольственной безопасности. Рассмотрена государственная экономическая политика в области продовольственной безопасности. Исследованы пути обеспечения продовольственной безопасности, отмечена важность проводимой в данном направлении государственной политики. Изучена роль государственной системы закупок сельскохозяйственной продукции в обеспечении продовольственной безопасности. Рассмотрены способы госзакупок сельскохозяйственной продукции. Обоснована необходимость регулирования и совершенствования существующей системы организационно- экономических отношений в сфере поставок сельскохозяйственной продукции для государственных нужд. Исследована особая роль государственно-частного партнерства в развитии системы поставок сельскохозяйственной продукции. На основе базы данных Государственного Комитета Статистики на основе таблиц и цифр проанализированы объемы и динамика роста производства пшеницы по годам, которые играют ключевую роль в обеспечении продовольственной безопасности. Учитывая, что эффективность системы государственных закупок сельскохозяйственной продукции является одной из основных целей политики государственных закупок, определены задачи, которые необходимо решать в приоритетном порядке для достижения этих целей. Также были даны рекомендации по повышению эффективности системы государственных закупок сельскохозяйственной продукции с точки зрения продовольственной безопасности.*

***Ключевые слова:*** *продовольственная безопасность, сельскохозяйственная продукция, государственные закупки, регулирование, зерно, пшеница*



*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

***Sevda Mammad Mikayilova***
***Gulsabah Vahid Rahimova***

***The role of the state procurement system for agricultural products in ensuring food security***

***Summary***

*The article substantiates the need to ensure food security in the country. Ways to ensure food security have been explored. The state economic policy in the field of food security is considered. The role of the state system of purchasing agricultural products in ensuring food security has been studied. Methods of state purchases of agricultural products are considered. The necessity of regulation and improvement of the existing system of organizational and economic relations in the field of agricultural products supply for state needs has been substantiated. The special role of public-private partnership in the development of the agricultural products supply system has been investigated. On the basis of the database of the State Statistics Committee, on the basis of tables and figures, the volumes and dynamics of growth in wheat production by years, which play a key role in ensuring food security, have been analyzed. Taking into account that the efficiency of the system of public procurement of agricultural products is one of the main goals of the public procurement policy, the tasks that need to be addressed as a priority in order to achieve these goals have been identified. Also, recommendations were given to improve the efficiency of the system of public procurement of agricultural products from the point of view of food security.*

***Key words:*** *food security, agricultural products, government procurement, regulation, grain, wheat*



***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub: 09.02. 2022.***
***Çapa qəbul olunub: 15.02.2022.***

*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*